**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**
**təsisatı ilə İslam Əməkdaşlıq Təşkilatının**
**Ombudsmanlar Assosiasiyası (İƏT-OA) arasında əməkdaşlıq**

İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyası (İƏT-OA) üzv ölkələrin ombudsmanları və milli insan hüquqları təsisatları (MİHT-lər) arasında əməkdaşlığın gücləndirilməsi məqsədi ilə yaradılmış beynəlxalq platformadır. Assosiasiya 2014-cü ildə Pakistanın İslamabad şəhərində keçirilmiş beynəlxalq konfransda, İƏT regionunda insan hüquqlarının müdafiəsinin, hesabatlılığın və yaxşı idarəçiliyin təşviq edilməsinin zəruriliyi əsasında təsis olunmuşdur. İƏT-OA-nın Katibliyi Pakistanın Federal Vergi Ombudsmanının Ofisi nəzdində fəaliyyət göstərir.

İƏT-OA-nın əsas məqsədləri üzv dövlətlərin ombudsman təsisatları arasında təcrübə mübadiləsini təşviq etmək, birgə fəaliyyətləri dəstəkləmək, insan hüquqlarının müdafiəsi sahəsində institusional potensialı gücləndirmək və İƏT çərçivəsində əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir.[1]

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) İƏT-OA ilə fəal əməkdaşlıq edir. Azərbaycan Ombudsman təsisatı Assosiasiyanın yalnız üzvü deyil, eyni zamanda onun İdarə Heyətində də təmsil olunur.

İƏT-OA-nın İdarə Heyətinin üzvü qismində Ombudsman Səbinə Əliyeva Assosiasiyanın Baş Assambleyalarında, İdarə Heyətinin iclaslarında və digər beynəlxalq tədbirlərdə iştirak edərək, insan hüquqlarının müdafiəsi, əhalinin həssas qruplarının və qadınların hüquqları, habelə regional əməkdaşlıq məsələləri üzrə Azərbaycanın mövqeyini təqdim etmişdir.

Azərbaycan Ombudsman təsisatı İƏT-OA-nın Qadın Hüquqları üzrə Alt Komitəsində də təmsil olunur.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Ombudsman təsisatı İƏT-OA ilə birgə üzv dövlətlərin ombudsman təsisatları üçün onlayn təlim seminarı təşkil etmişdir. Seminarın məqsədi insan hüquqlarının səmərəli müdafiəsi sahəsində bilik və bacarıqların artırılması, eləcə də təcrübə mübadiləsinin gücləndirilməsi olmuşdur.

2022-ci ilin oktyabr ayında Ombudsmanın təşəbbüsü ilə Azərbaycanda İƏT-OA-nın Baş Assambleyası keçirilmişdir. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Pakistan, Mərakeş, İran və İndoneziyadan nümayəndələr iştirak etmişdir.[2]

Ombudsman Səbinə Əliyevanın dəvəti ilə 2020 və 2021-ci illərdə İƏT-OA-nın Prezidenti və Baş katibin müşaviri rəhbərliyi ilə nümayəndə heyətləri Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərini, mədəni irsin dağıdılmasını və ekoloji terror faktlarını yerində araşdırmaq məqsədilə faktaraşdırıcı missiyalar həyata keçirmişlər. Missiyaların nəticələri əsasında hazırlanmış hesabatlar beynəlxalq təşkilatlara təqdim olunmuşdur.

---

1 https://oicoa.org/about.html

2 https://ombudsman.az/az/news/465